# "Nizami Gəncəvi İli"ndə Ədəbiyyat İnstitutu alimlərinin elmi-təqdqiqatları və ictimai fəaliyyətləri

**Zakirə Əliyeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan
E-mail: zakiraalieva@ rambler.ru

**Annotasiya.** Prezident cənab İlham Əliyevin Sərəncamı ilə (05 yanvar 2021-ci il) Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar 2021-ci il ölkəmizdə "Nizami Gəncəvi İli" elan olundu. AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru akademik İsa Həbibbəyli bu Sərəncamı ədəbiyyatşünaslıq elmində "Nizami Gəncəvinin irsinə və ideallarına yenidən qayıdışa çağırış" kimi dəyərləndirdi. Bu sərəncam Ümummilli lider Heydər Əliyevin 1979-cu ildə böyük Azərbaycan şairi Nizami Gəncəvinin zəngin irsinin tədqiqi, tərcümə və nəşr edilməsi haqqında qəbul etdiyi qərar əsasında həyata keçirilmiş tədbirlərə yenidən qayıtmaq üçün də geniş meydan açdı. Akademik İsa Həbibbəyli qeyd edir ki, dahi şairin əsərlərinin dünya dillərinə tərcüməsi, "Xəmsə"nin akademik nəşrinin hazırlanması və nəşri, haqqında tədqiqat işlərinin, xarici dillərdə tanıtma kitablarının yazılıb çap olunması kimi mühüm vəzifələr qarşıda durur.
2021-ci ildə estafeti ələ alan çağımızın nizamişünaslar nəsli (AMEA-nın müxbir üzvü Nüşabə Araslı, filologiya elmləri doktoru İmamverdi Həmidov, filologiya üzrə fəlsəfə doktorları Vəfa Hacıyeva, Siracəddin Hacı, Zəhra Allahverdiyeva, Təhminə Bədəlova, Yelena Teyer və b.) bu vəzifələri şərəflə yerinə yetirdi və yeni tədqiqat nümunələrini dünya elminə inteqrasiya müstəvisində ictimailəşdirməyi bacardı.
**Açar sözlər:** "Nizami Gəncəvi İli", Ədəbiyyat İnstitutu, nizamişünaslıq, elmi-tədqiqat, zəngin irs

**Məqalə tarixçəsi:** göndərilib – 11.05.2022; qəbul edilib – 19.05.2022

# Scientific researches and social activities of scientists of Institute of Literature in the "Year of Nizami Ganjavi"

**Zakira Aliyeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: zakiraalieva@ rambler.ru

**Abstract.** By the order of President Ilham Aliyev (January 5, 2021) in connection with the 880th anniversary of Nizami Ganjavi, 2021 was declared the "Year of Nizami". Vice-president of ANAS, director of the Institute of Literature named after Nizami Ganjavi, academician Isa Habibbeyli assessed this order in literary criticism as "a call to return to the heritage and ideals of Nizami Ganjavi". This order opened a wide field for returning to the measures taken in 1979 on the basis of the order of the national leader Heydar Aliyev to research, translate and publish the rich heritage of the great Azerbaijani poet Nizami Ganjavi. Academician I.Habibbeyli noted that there are important tasks ahead – translation of the works of the great poet into the languages of the world, preparation and publication of the academic edition of "Khamsa", research work on it, writing and publishing promotional books in foreign languages.
A new generation of scholars-philologists, orientalists (corresponding member of ANAS Nushaba Arasli, Doctor of Philology Imamverdi Hamidov, Doctor of Philology Vafa Hajiyeva, Sirajeddin Haji, Zahra Allahverdiyeva, Tahmina Badalova, Elena Teer, etc.) who took over the baton in 2021, almost since honorably carrying out this responsibility, they managed to socialize it in the context of integration into world science.

**Keywords:** "Year of Nizami Ganjavi", Institute of Literature, Nizami studies, scientific research, rich heritage

**Article history:** received – 11.05.2022; accepted − 19.05.2022

## Giriş / *Introduction*

Elmin populyarlaşdırılması vasitələri özlüyündə elmi bilik mənbələridir. Ədəbiyyatşünaslıq elmi sahəsində populyarlaşmanın əhatə dairəsinin genişlənməsi və artması, müəyyən dərəcədə ədəbiyyat tarixinə, ədəbi tənqid materiallarına, ədəbi şəxsiyyətlərə, ədəbiyyatşünas alimlərə, xüsusi elmi araşdırma və nəzəriyyələrə diqqəti cəlb etmək deməkdir. Elm populyarlaşdırıcıları elmi məlumatları cəmiyyətə başadüşülən, əlçatan, etibarlı faktlarla və maraqlı şəkildə təqdim edən alimlər və ya araşdırıcılardır. Müasir dövrümüzdə elmi biliyin istehsalı və onun sosial əhatəsi praktiki aktuallığı da zəruri edir. Elmin sosialşünaslığı qarşısında elmi biliyin sosial-mədəni və dəyər-məqsəd aspektlərinin tanıdılması kimi vəzifələr də durur. "2021-Nizami Gəncəvi ili"nə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun ədəbiyyatşünas alimlərinin verdiyi töhfələr nöqteyi-nəzərindən baxılarsa, dahi mütəfəkkir şairin Azərbaycan xalqının mənəvi sərvəti olan zəngin irsinin həm ölkə daxilində, həm də onun sərhədlərindən kənarda populyarlaşmasında əldə edilmiş elmi nəticələri yüksək dəyərləndirmək olar.

## Əsas hissə / *Main Part*

"2021-Nizami Gəncəvi İli" – bəşəriyyətin bədii, elmi-fəlsəfi fikir tarixində yeni səhifə açmış dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin zəngin irsini tədqiqi sahəsində də yeni bir səhifə açmış oldu.

Prezident cənab İlham Əliyevin Sərəncamı ilə (05 yanvar 2021-ci il) Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar 2021-ci il "Nizami Gəncəvi ili" elan olundu [1]. AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru akademik İsa Həbibbəyli bu Sərəncamı ədəbiyyatşünaslıq elmində "Nizami Gəncəvinin irsinə və ideallarına yenidən qayıdışa çağırış" kimi [**7**, s.10] dəyərləndirdi və onun "Vaxtilə Ümummilli lider Heydər Əliyevin 1979-cu ildə böyük Azərbaycan şairi Nizami Gəncəvinin zəngin irsinin tədqiqi, tərcümə və nəşr edilməsi haqqında qəbul etdiyi qərar əsasında həyata keçirilmiş tədbirlərə yenidən qayıtmaq, başlanmış mühüm işləri daha geniş miqyasda və əhatəli şəkildə, yaradıcılıqla davam etdirmək üçün də" geniş meydan açdığını və dahi şairin əsərlərinin dünya dillərinə tərcüməsi, "Xəmsə"nin akademik nəşrinin hazırlanması və nəşri, haqqında tədqiqat işlərinin, xarici dillərdə tanıtma kitablarının yazılıb çap olunmasını da qarşıda duran mühüm vəzifələr kimi diqqətə çatdırdı.

Azərbaycan xalqının milli kimliyinin, mədəni-mənəvi dəyərlərimizin daşıyıcısı olan ədəbi irsimizin yüksək elmi səviyyədə tədqiqi, təqdimi və təbliği, eyni zamanda elmi-mədəni inteqrasiya proseslərində ədəbiyyatşünaslıq elmimizin də milli simasının tanıdılmasına xidmət edir.

Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi, "Ədəbi-tənqidi fikrimizin patriarxı" (Prof. B.Əhmədli) hesab edilən Yaşar Qarayev ədəbiyyat, sənət və mədəniyyət sahəsində fundamental elmin strateji məqsədini "Azərbaycan xalqının mənəvi irsini dünya mədəniyyətinin inkişaf kontekstində tədqiq etmək, Azərbaycan cəmiyyətinin yaranmasının etnik və milli proseslərini müəyyən eləmək"də görürdü [15, s.339]. Dahi mütəfəkkir şair Nizami Gəncəvi irsinə ədəbiyyatşünaslıq elminin bu strateji məqsədi ilə yanaşan Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun alimləri və onların elmi əsərlərini tanıtmaq və təbliğ etmək imkanları indi daha geniş və çoxcəhətlidir. Ədəbiyyatşünaslığımızın təbliği isə təbii ki, əslində ədəbiyyatımızın təbliğidir.

"Məlumdur ki, geniş kütlə, xalq, millət üçün ən çox təsirlisi humanitar elmlərdir və xüsusən millətin, xalqın tarixi, ya ümumiyyətlə tarix onun ədəbiyyatının, mədəniyyətinin tarixidir" /Heydər Əliyev/ [5, s.159]. Həqiqətən, dünya tarixinin ən müxtəlif dövrlərindən belə tanınmış alimlərin

yazdığı əsərlər, irəli sürdüyü fikirlər təkcə elm adamları üçün yox, ümumiyyətlə cəmiyyət üçün həmişə etibarlı mənbə hesab olunmuşdur. Çağımızda ədəbiyyatşünaslıq elmimiz və alimlərimiz Müstəqil Azərbaycanın ədəbi-mədəni simasını, milli kimliyini dünya ictimaiyyətinə də ciddi tədqiqatlarla, etibarlı mənbələrlə təqdim edir.

Klassik ədəbiyyatın öyrənilməsi sahəsində diqqətəlayiq elmi işlərin yazılması, həm ölkə daxilində, həm də xarici ölkələrdə təbliği, qarşılıqlı ədəbi əlaqələrin mövzusu olması burada çalışan yaradıcı insanların – AMEA-nın həqiqi üzvləri M.A.Dadaşzadə, M.İbrahimov, F.Qasımzadə, H.Araslı, M.Cəfərov, K.Talıbzadə, B.Nəbiyev, müxbir üzvləri A.Zamanov, Y.Qarayev, Ə.Mirəhmədov, professorlar M.Quluzadə, K.Məmmədov, M.Seyidov, Ə.Ağayev və başqalarının adı ilə bağlıdır.

**Tarixi baxış.** Klassik ədəbi irsimizi zamanın tələbləri səviyyəsində, hərtərəfli və dərindən öyrənmək, tədqiq və təbliğ etmək zərurəti və "klassik ədəbi irsin və müasir ədəbiyyatın tədqiqinə diqqəti artırmaq məqsədilə" Azərbaycan SSR EA Rəyasət heyətinin qərarı ilə 1979-cu ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun strukturunda "Nizamişünaslıq" şöbəsi təşkil edildi. Şöbənin əsas fəaliyyət istiqaməti Dahi mütəfəkkir şair Nizami Gəncəvinin irisinin tədqiq edilməsi, əsərlərinin nəşri və təbliği kimi müəyyən edilmişdi. Şöbənin ilk rəhbərləri nizamişünas alimlər, şərqşünas, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, Harvard Universitetinin Fəxri doktoru Rüstəm Əliyev (1980-1983), daha sonra şərqşünas alim, filologiya elmləri doktoru, professor, Azərbaycanın Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü Azadə Rüstəmova (1984-1991) oldu.

"1979-cu ildə şöbə əməkdaşlarının Nizami Gəncəvi irsinin tədqiqinə həsr edilmiş əsərləri sərhədləri aşaraq dövrü mətbuat orqanlarında, elmi tədbirlərdə, görüşlərdə təmsil olunmağa başladı. Çox keçmədən, 1980-ci il 26-27 noyabr tarixində Nizami Komissiyası və Əlaqələndirmə Şurasının birgə təşkilatçılığı ilə "XI-XII əsrlər Azərbaycan mədəniyyəti və Nizami yaradıcılığı" mövzusunda elmi konfrans, 1981-ci ilin sentyabr-oktyabr aylarında isə şairin 840 illiyinə həsr olunmuş elmi sessiyalar keçirildi.

Şöbənin öhdəsinə "Nizami dövrünü, yaradıcılığını dünya ədəbiyyatı və mədəniyyəti kontekstində" tədqiq etmək kimi yeni vəzifələr qoyuldu. 1981-83-cü illərdə Rüstəm Əliyevin filoloji tərcüməsi, izah, şərh və lüğəti ilə "Sirlər xəzinəsi", "Yeddi gözəl", "Nizami" qısa biblioqrafik məlumat kitabı və s. ilə yanaşı, xarici dillərdə Azadə Rüstəmovanın "Nizami Ganjavi", "Nizami Ganjavi: the outstanding man of Azerbaijan" və s. kitablar nəşr edildi.

Nizami Gəncəvinin 850 illik yubileyi ərəfəsində 1986-1990-cı illərdə "Nizami Gəncəvinin bədii metodu" (Azadə Rüstəmova), "Nizami yaradıcılığında tarix və tarixilik" (Teymur Kərimli), "Nizami dünya ədəbiyyatşünaslığında" toplusu, "Nizami" almanaxının II və III buraxılışları və s. nəşrə hazırlanmışdır. Bu mənbələrdə ədəbiyyatşünas alimlərin Nizami Gəncəvi yaradıcılığının müxtəlif problemlərinə həsr olunmuş araşdırmaları öz əksini tapıb. Nizamişünaslıq şöbəsinin əməkdaşlarından Nüşabə Araslının "Nizami və qədim türk abidələri", Gülçin Hüseynova "Nizami İran ədəbiyyatşünaslığında", Yelena Teyerin "Nizami Gəncəvi Polşa tədqiqatında və tərcüməsində", Zəhra Allahverdiyevanın "Nizami irsi müasir Azərbaycan ədəbiyyatşünaslığında" mövzularında tədqiqatları nəşrə hazırlanırdı. Eyni zamanda Nizami Gəncəvi "Xəmsə"sinin elmi-tənqidi mətninin nəşri də şöbəyə həvalə edilmişdi.

1991-ci ildə Təbrizdə keçirilən Nizami Gəncəvi yaradıcılığına həsr edilmiş beynəlxalq konfransda Nüşabə Araslı "Nizaminin şairlik hünəri" mövzusunda məruzə edir, Təbrizdə nəşr olunan "Yol" məcəlləsində nizamişünas alimin "Türk həmasi şeirində Nizami təsiri" məqaləsi də dərc edilir.

1992-ci ildə də Nizami Gəncəvinin 850 illik yubileyinə dair planlaşdırılmış işlər davam etdirildi. Həmin ildə "Nizamişünaslıq" şöbəsi İnstitutun Elmi Şurasının qərarı ilə "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı" şöbəsinin tərkibinə daxil edilir və sonuncu adıçəkilən şöbə 1993-cü ildə "Qədim dövr Azərbaycan ədəbiyyatı" və "Orta əsrlər Azərbaycan ədəbiyyatı" şöbələrinə ayrılır. "Nizami və onun poeziya sələfləri" (Azadə Rüstəmova), "İngilis şərqşünaslığı və Nizami yaradıcılığında dini və təsəvvüfi anlayışlar" (İmperial Arzumanova), "Nizami "Xəmsə"si və renessans sənətkarlarının əsərlərində yunan mədəniyyəti" (A.Kazımov) və s. tədqiqatlar aparılırdı.

**Ulu öndərin Azərbaycanı dünyaya tanıtmaq tövsiyəsi.** 1993-cü ildə Milli Elmlər Akademiyasında ziyalılarla görüşdə Ulu öndər Heydər Əliyev çıxışında qeyd edirdi ki, "Əgər biz Azərbaycanı müstəqil bir dövlət kimi dünyaya tanıtmaq istəyiriksə, Azərbaycanın qədim tarixini, əsrlər boyu keçdiyi yolu gərək həm öz vətəndaşlarımıza, həm də bütün ölkələrdə olan elm adamlarına, respublikamıza maraq göstərən adamlara tanıdaq... Nizami Gəncəvinin əsərləri təkcə ədəbi cəhətdən deyil, fəlsəfi baxımdan da əvəzsizdir. Lakin 1948-ci ildən ötən 50 ilə yaxın vaxtda biz onların istənilən səviyyədə yayılmasına nail ola bilməmişik... Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq... " [5, s.29].

Ulu öndərin tövsiyə etdiyi kimi Ədəbiyyat İnstitutunun nizamişünas alimlərinin qarşısında Nizami Gəncəvi şəxsiyyətini dünya ictimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq kimi mühüm vəzifə dururdu. Nizami Gəncəvi irsinə dair tədqiqatlar diqqət mərkəzində saxlanılır, müasir metodoloji əsaslarda yeni tədqiqatlarla nizamişünaslıq elmi estafeti davam etdirilirdi. Çingiz Sasaninin "Nizami Gəncəvi və Azərbaycan irfan ədəbiyyatı" (1996), Azadə Rüstəmovanın "Nizami və onun poeziya sələfləri" (1997) Zəhra Allahverdiyevanın "Nizaminin təsir dairəsi" (2001), Teymur Kərimlinin "Nizami və tarix" (2002), Vəfa Hacıyevanın "Nizaminin "İsgəndərnamə" poemasında onomastik vahidlər (2004) və s. bu davamlı elmi estafetin ciddi elmi nümunələridir.

2004-cü il Nizami Gəncəvinin türkcə "Divan"ının tapılması ilə əlaqədar müzakirələrin aparılması ilə yadda qalmış, son nəticə olaraq yaradılmış elmi nüfuzlu Komissiya bunun Nizami yaradıcılığı ilə heç bir əlaqəsi olmadığını müəyyən etmişdir.

2005-ci ilin iyun ayının 10-da "Nizami irsi milli müstəqillik dövründə" Respublika əhəmiyyətli elmi konfrans keçirilmişdir. Konfransda klassiklərə yeni, müstəqillik dövrünün təfəkkürü işığında yanaşmaq baxımından "Nizami və Şərq-Qərb problemi", "Nizami Gəncəvinin dilində "türk" sözünün işlənmə məqamları", "Rusiya nizamişünaslığının təşəkkülü" və s. kimi məruzələr dinlənilmişdir.

2009-cu ildə Siracəddin Hacının "Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd" adlı əsərinin ikinci hissəsi nəşrə təqdim edilmiş, 2010-cu ildə "Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poeması" adlı tədqiqat işi tamamlanmışdır.

2010-cu ildə "Nizami yaradıcılığında humanizm problemi" (Teymur Kərimli) mövzusunda məruzə "Azərbaycan-Macarıstan: mədəniyyətlərin dialoqu" adlı beynəlxalq elmi konfransda yer almış, Vəfa Hacıyevanın "Типология поэтика-стилистических функций имен собственных в творчестве Низами Гянджеви" kitabı "Elm" nəşriyyatında çapdan çıxmışdır.

2011-ci ildə Azərbaycan Respublikası Prezidentinin "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" sərəncam (23 dekabr, 1927 saylı) imzalamışdır. Sərəncama əsasən, Nizami Gəncəvinin zəngin irsinin təbliği və tədqiqi sahəsində uzunmüddətli proqramlar paketi hazırlanıb, həyata keçirilmişdir. Gəncə şəhərindəki Nizami Mərkəzi ilə birlikdə beynəlxalq konfrans keçirilmiş və materailları nəşr edilmişdir. Proqram paketi üzrə AMEA-nın müxbir üzvü Teymur Kərimlinin "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi" monoqrafiyasının ingilis, rus, türk, ərəb, fars dillərində nəşri və yayımlanması da nəzərdə tutulmuşdur.

2012-ci ilin 29 noyabr – 2 dekabr tarixlərində Hindistanın paytaxtı Dehli şəhərində keçirilən beynəlxalq elmi konfransda AMEA-nın müxbir üzvü Teymur Kərimli, professor Qəzənfər Paşayev, filologiya üzrə fəlsəfə doktoru Siracəddin Hacı məruzələrlə çıxış etmişlər.

2013-2015-ci illərdə Nizami əsərlərinin təkmilləşdirilmiş filoloji tərcümələrinin hazırlanması üzərində işlər davam etdirilmiş, professor Vaqif Arzumanlının "Nizami Gəncəvi və Avropa şərqşünaslığı" monoqrafiyası nəşrə təqdim edilmişdir.

**"Nizamişünaslıqda dönüş mərhələsi".** Akademik İsa Həbibbəyli 2021-ci ilin Nizami Gəncəvi ili elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamını dahi şairin tərcümeyi-halı və zəngin ədəbi irsinin tədqiqi və təbliği sahəsində yeni perspektivlər açdığını, "Nizami Gəncəvi ili"nin elmi dövriyyəyə dahi şairin nəsil şəcərəsi, Nizami Gəncəvi yaradıcılığında türkçülük və azərbaycançılıq, Nizami Gəncəvi və Azərbaycan renessansı və s. yeni mövzular daxil etdiyini" xüsusi qeyd etdi [7, s.10]. "Nizami Gəncəvi ədəbi irsi: Heydər Əliyevdən İlham Əliye-

və", "Nizami Gəncəvi irsinə və ideallarına yenidən qayıdışa çağırış", "Nizamişünaslıqda dönüş mərhələsi" və b. məqalələri ilə mətbuatda çıxış edən akademik İsa Həbibbəyli əslində hələ Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Nizamişünaslıq şöbəsinin bərpasına (2014-cü il), "Nizami Gəncəvi almanaxı"nın (2019-cu il), "Ədəbi proses" (2013-cü ildən) toplusunun yenidən nəşrinə nail olduğu illərdən rəhbərlik etdiyi Ədəbiyyat İnstitutunun elmi potensialını nizamişünaslıqda yeni elmi axtarışlara səfərbər edə bilmişdi.

AMEA-nın müxbir üzvü, professor Səlahəddin Xəlilov yazır ki, "Elmin inkişaf qanunauyğunluğu araşdırılarkən özünəməxsus bir estafet prinsipi tətbiq olunmuşdur. Belə ki, elmi tədqiqatların yeni dövrəsi ilk ideya müəlliflərinə istinad edilsə də, artıq yeni alimlər tərəfindən və fərqli şəraitdə həyata keçirilir. Deməli, elmi fəaliyyətin hər bir budağı təkcə məntiqi-qnoseoloji parametrlərlə deyil, həmçinin sosial parametrlərlə də səciyyələnir" [11, s.707]. Ədəbiyyat İnstitutunun alimlərinin elmi əsərlərinin ali missiyasını da məhz bu müstəsna əhəmiyyətli səciyyələrlə də xarakterizə etmək olar.

2014-cü ildə "Nizamişünaslıq" şöbəsi bərpa olundu və fəaliyyətinə start verildi. Şöbənin növbəti fəaliyyət illərində estafeti ələ alan çağımızın nizamişünaslar nəsli (AMEA-nın müxbir üzvü Nüşabə Araslı, filologiya elmləri doktoru İmamverdi Həmidov, filologiya üzrə fəlsəfə doktorları Vəfa Hacıyeva, Siracəddin Hacı, Zəhra Allahverdiyeva, Təhminə Bədəlova, Yelena Teyer və b.) Nizami Gəncəvi irsinin tədqiqi tarixində ciddi elmi iz qoymuş nizamişünas alimlərin yaradıcılığına istinad etməklə 2021-ci ildə bu estafeti şərəflə yerinə yetirdi və yeni tədqiqat nümunələrini dünya elminə inteqrasiya müstəvisində ictimailəşdirməyi bacardı. "Nizami Gəncəvi İli" çərçivəsində Ədəbiyyat İnstitutunda həyata keçirilməsi nəzərdə tutulan demək olar ki, bütün elmi işlərin, tədbirlərin icrası Nizamişünaslıq şöbəsinin bilavasitə iştirakı və əməkdaşlığı ilə həyat keçirildi. Ədəbiyyat İnstitutunun alimlərinin "Nizami Gəncəvi İli"nə verdiyi elmi töhfələr – tədqiqatları, araşdırmaları, kitab və monoqrafiyaları, məqalələri, beynəlxalq səviyyədə konfrans və simpoziumlarda, yubiley tədbirlərində məruzələri, çıxışları və s. – Nizami Gəncəvi yaradıcılığının ictimailəşdirilməsi, populyarlaşması, cəmiyyətdə və beynəlxalq miqyasda təbliğində müstəsna əhəmiyyətə malikdir.

**"Nizami Gəncəvi İli"nin nəşrləri –** Nizamişünaslıq şöbəsinə rəhbərlik edən, yeni, gənc nizamişünas kadrların hazırlanmasında xüsusi xidmətləri olan görkəmli nizamişünas alim, AMEA-nın müxbir üzvü Nüşabə xanım Araslı elmi məqalələrinin birində Vətən müharibəsinin yaralarına Nizami sözünün hikməti ilə məlhəm qoyaraq yazırdı: "Bu sərəncamı böyük sevinclə qarşıladım və bunu uğurlu bir hadisə hesab edirəm. Nizami Gəncəvi Azərbaycan xalqının, ümumilikdə bəşəriyyətin səadəti uğrunda çalışan və bütün insanlara xoşbəxtlik arzulayan bir şair olub. "Nizami İli" bizə uğur gətirəcək. Bunu qarşıya çıxan, bizdən asılı olmayan bu mürəkkəbliklərin uğurla həll edilməsinin əlaməti kimi mənalandırıram....

*Ümidsiz qaş çatma, aç bir gözünü,*
*Zəfər güzgüsündə gör öz üzünü... [3, s.5]*

"Nizami Gəncəvi İli"nə ən sanballı elmi töhfə də Nüşabə xanım Araslının rəhbərliyi ilə Nizamişünaslıq şöbəsinin əməkdaşlarının (Zəhra Allahverdiyeva, Təhminə Bədəlova, Yelena Teyer, Vəfa Hacıyeva, Hürnisə Bəşirova) "obyektiv elmi meyarlara istinad etməklə, zəngin mənbələr əsasında və müstəqil dövlətçilik idealları işığında", böyük Azərbaycan şairinin həyat və yaradıcılığının geniş elmi panoramını yaratdıqları "Nizami Gəncəvi: Həyatı və yaradıcılığı" adlı fundamental tədqiqat əsəri oldu.

Bu qəbildən ciddi elmi təşəbbüsün ərsəyə gəlməsində filologiya elmləri doktoru Elnarə Akimovanın qeyd etdiyi kimi, Azərbaycan Respublikası Prezidentinin Sərəncamını "Nizami xalqı, Nizami milləti olaraq dünyaya üz tutmağın mesajı"nın böyük əhəmiyyəti var idi. Nizami irsinin qloballaşan dünyda elmi biliklərin "müasir dərkinə" yönəlmiş "müqayisəli ədəbiyyat kontekstində və modern sənət kontekstində" yeni istiqamətlərdə araşdırılmasına ehtiyac olduğunu diqqətə çatdıran müəllif, əslində, Nizaminin nəinki dünyaya, xalqımıza, özümüzə belə yenidən tanıtmağın strateji – konseptual və modern yollarını təqdim edirdi [2, s.189-190].

Nizamişünas, filologiya üzrə fəlsəfə doktoru Zəhra Allahverdiyeva "Nizami ili" haqqında Azərbaycan Prezidentinin Sərəncamı ilə dahi mütəfəkkirin həyatı, dövrü, ədəbi mühiti haqqında dəqiq elmi araşdırmaların aparılması, şairin əsərlərinin əlyazmalarının dürüst elmi-tənqidi mətnlərinin üzə çıxarılması, bədii irsinin ideya-fəlsəfi-poetik xüsusiyyətlərinin daha geniş aspektdə tədqiqi, poemalarının dünya xalqlarının dilinə tərcümələri və nəşri işlərinin yenilənməsi" istiqamətlərində nizamişünaslığa yeni elmi töhfələr veriləcəyinin əhəmiyyətini diqqətə çatdırırdı [16].

Filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlı "Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2019-cu ili "Nəsimi ili", həmçinin 2021-ci ili "Nizami Gəncəvi ili" elan etməsini, bu istiqamətdə kütləvi tədbirlərin keçirilməsinə, ədəbi müstəvidə çoxsaylı elmi əsərlərin yazılmasına geniş imkanlar yaratdığını", "bunun nəticəsi olaraq milli-mənəvi dəyərlərimizin təməllərini təşkil edən ədəbi nümunələrimizin təbliğ imkanlarının daha da genişləndiyini" xüsusi qeyd edir: "... Xalqımızın milli-mənəvi dəyərlərinin qorunması və inkişafı istiqamətində atılan hər addım, görülən işlər olduqca təqdirəlayiqdir" [4].

İlk növbədə dünyanın bir çox ölkələrinin elmi qurumları, kitabxanaları, ədəbi birlikləri, nəşriyyatları ilə əməkdaşlıq çərçivəsində Nizami Gəncəvi irsinin tədqiqinə həsr olunmuş kitabların, monoqrafiyaların, elmi topluların, Respublika və beynəlxalq səviyyədə keçirilmiş elmi konfrans materiallarının nəşri və yayımlanması Nizami Gəncəvi irsinin populyarlaşmasında və "xalqımızın milli-mənəvi dəyərlərinin qorunması və inkişafı istiqamətində", həqiqətən təqdirəlayiq yeni bir mərhələnin başlanğıcına rəvac verdi: "Nizami Gəncəvi: Həyatı və yaradıcılığı" (2021, 984 s.), "Nizami Gəncəvi almanaxı-II" (2021, 254 s.), "Nizami Gəncəvi almanaxı-III" (2021, 188 s.), İ.Həbibbəyli. "Nizami Gəncəviyə Fəxriyyə" (2021, 140 s.), Siracəddin Hacı. Nizami Gəncəvinin "Yeddi gözəl" məsnəvisinin şərhi" (2021, 520 s.), Xuraman Hümmətova "Nizami Gəncəvi və ezoterizm" (2021, 123 s.), "Nizami Gəncəvi və Əlişir Nəvai: ənənə və novatorluq" (2021), A.Y.Krımski. "Nizami və müasirləri" (2021) və s. kitab və monoqrafiyalar nəşr edildi. Xüsusilə "Sənətkarın elmi pasportu" seriyasından "Nizami Gəncəvi: Həyatı və yaradıcılığı" monoqrafiyası Nizamişünaslıq şöbəsinin əməkdaşlarının gərgin və səmərəli əməyinin nəticəsi olaraq başa gəlmişdir, Nizaminin həyat və yaradıcılığını tam əhatə edən ilk ümumiləşdirilmiş fundamental elmi-tədqiqat əsəri kimi dəyərlidir. Monoqrafiyada XII əsrdə Nizami Gəncəvi fenomeni və Azərbaycanın Şərqdə tutduğu mühüm siyasi-strateji mövqe, şairin ədəbi-ictimai mühiti, tərcümeyi halı, milli mənsubiyyəti və yaradıcılıq qaynaqları, mövzu və ideyaları elmi şəkildə tədqiq və təqdim olunur. Kitaba "Böyük Azərbaycan şairi Nizami Gəncəvi haqqında söz və Azərbaycan nizamişünaslığına giriş" adlı ön sözdə akademik İsa Həbibbəyli bu cəhəti xüsusi qeyd edərək onu yeni tarixi epoxanın nizamişünas alimlərinin tədqiqatlarının, baxışları və yanaşmalarının elmi göstəricisi kimi dəyərləndirir.

"Nizami Gəncəvi ili"nin elmi dövriyyəyə daxil etdiyi "Türkçülük və Azərbaycançılıq, "Nizami Gəncəvi və Azərbaycan renessansı", "Şərq intibah ədəbiyyatı və mədəniyyətinin əsas yaradıcılarından biri" kimi yeni axtarışlar (İ.Həbibbəyli), "müqayisəli ədəbiyyat kontekstində və modern sənət kontekstində" yeni araşdırmalar (E.Akimova), "şairin əsərlərinin əlyazmalarının dürüst elmi-tənqidi mətnlər..., bədii irsinin daha geniş aspektdə tədqiqi" (Z.Allahverdiyeva) və "mənəvi dəyərlərimizin təməllərini təşkil edən ədəbi nümunələrimizin təbliği" (A.Bağırlı) müstəvisində yazılmış elmi məqalələr "Nizami Gəncəvi İli"nin uğurlu elmi nəticələridir.

Eyni zamanda:

**Xarici dillərdə.** N.Araslı. "Низами Гянджеви и турецкая литература» (462 s.), İ.Həbibbəyli. "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" (Azərbaycan, türk, ingilis, rus, alman, Çin, polyak, gürcü, Ukrayna və bolqar dillərində) (2021, 440 s.), A.Rüstəmova, F.Əzizova. "В орбите слова Низами Гянджеви" (2021, 328 s.), X.Hümmətova. "Низами Гянджеви и эзотеризм» (2021, 104 s.), "Nizami Ganjavi – Almanac-III" (2021, 253 s.).

Akademik İsa Həbibbəylinin "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" adlı, Azərbaycan, türk, ingilis, rus, alman, Çin, polyak, gürcü, Ukrayna və bolqar dillərində çap olunan kitabını Akademik Teymur Kərimli "Nizami dühasının mükəmməl elmi təqdimatı", dahi mütəfəkkir şairin zəngin irsinin dünyada tanıdılması istiqamətində yeni orijinal bir elmi yaradıcılıq nümunəsi kimi dəyərləndirir [12].

Nizamişünas alimlərdən Nüşabə Araslı, Zəhra Allahverdiyeva da “Nizami Gəncəvinin həyatı və yaradıcılığına dair müasir ədəbiyyatşünaslıqda mövcud konsepsiyaları bir araya gətirməklə və bir çox problemlərin həllində yeni dövrün elmi nəticələrinə əsaslanmaqla yazılmış bu əsəri öz elmi əhəmiyyətinə görə, dünya nizamişünaslığının tarixində müstəsna hadisə hesab edir” və “ölməz sənət dühasını bütün xalqlara olduğu kimi tanıtmaqla, şairin həyat və yaradıcılığı ilə bağlı təhrif və qərəzli mülahizələri də aradan qaldıracağını” xüsusi vurğulayırlar. (“Nizami Gəncəvi haqqında yeni elmi araşdırma” [10].

**Xarici ölkələrdə:**

- “El gran poeta humanista de Azerbaiyán” (“Azərbaycanın dahi humanist şairi”, Argentina, 2021, 410 s.): Azərbaycan Respublikasının Argentinadakı Səfirliyi və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun birgə nəşri – İsa Həbibbəyli, Nüşabə Araslı, Pərvanə İsayeva, Gülər Abdullabəyova, Zəhra Allahverdiyeva, Vəfa Hacıyeva, Təhminə Bədəlova, Aygün Bağırlı, Hürnisə Bəşirova, Samirə Əliyeva.
- “العرب العلماء بعيون كنجوي نظامي الأذربيجاني الشاعر” (“Azərbaycan şairi Nizami Gəncəvi ərəb alimlərinin gözü ilə”, İordaniya, 2021, 296 s.), Azərbaycanın İordaniyadakı Səfirliyi və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun birgə nəşri. Ön sözün müəllifi: akademik İsa Həbibbəyli, elmi redaktoru: professor İmamverdi Həmidov
- “Shota Rustaveli and Nizami Ganjavi” (“Şota Rustaveli və Nizami Gəncəvi” – Azərbaycan, gürcü və ingilis dillərində, Gürcüstan, Tiflis: 2021, 512 s.),
- İ.Həbibbəyli. “Nizami Gencevi: Azerbaycandan dünyaya (Türkiyə, 2021, 128 s.).

Nizami Gəncəvi irsinin dünyada tanıdılması və populyarlaşması istiqamətində daha uğurlu bir addım İordaniya Haşimilər Krallığında, Ammanda “Azərbaycan şairi Nizami Gəncəvi ərəb alimlərinin gözü ilə” adlı kitabın nəşridir. Kitabda İordaniya, Misir, Suriya, Livan, İraq, Əlcəzair, Mərakeşdən olan alimlərlə yanaşı, Azərbaycan alimləri akademik İsa Həbibbəyli və professor İmamverdi Həmidovun məqalələri də daxil edilib.

**Konfranslar:** Nizami Gəncəvi adına Ədəbiyyat İnstitunun təşkilatçısı və iştirakçısı olduğu “Nizami və Nəvai: ənənə və novatorluq” (fevral), “Böyük Azərbaycan şairi Nizami Gəncəvinin həyat yolu və sənət idealları” (mart), “Böyük Azərbaycan” şairi Nizami Gəncəvinin sənət dünyası və müasir dövr” (aprel), “Nizami Gəncəvinin hikmət xəzinəsi” (iyun), “Nizami Gəncəvi irsi və təbiət”, “Nizami Gəncəvi yaradıcılığında riyazi-astronomik baxış” mövzusunda VIII “Fizika və lirika” (oktyabr), “Nizami Gəncəvinin Türkiyədə təbliği və nəşri”, “Yaşayan Nizami Gəncəvi” (dekabr) və s. yanaşı, həm ölkəmizdə, həm də ölkəmizin sərhədlərindən uzaqlarda (Türkiyə, Rusiya, Özbəkistan və b. ölkələrdə) keçirilən konfranslarda əməkdaşlarımızın məruzə və tezisləri “Nizami Gəncəvi ili”nin nəşr olunmuş materailları sırasına daxildir.

“Nizami Gəncəvi ili”nin ənənvi və onlayn tədbirlərində, elmi görüşlərdə, konfrans və simpoziumlarda gürcü alimləri İrma Ratiani, Maka Elbakidze və Qaqa Lomedze, özbək ziyalıları Hamidulla Baltobayev, Camal Kamal, türkiyəli aydınlar Yaqub Öməroğlu, Mustafa İsen, Orxan Söyləməz, livanlı Viktor əl-Kik və doktor Dəllal Abbas və başqaları azərbaycanlı mütəfəkkirin ədəbi irsinə münasibət bildirmiş, onu bu və digər şəkildə təbliğ etmişlər.

Nizami Gəncəvinin nəsil şəcərəsi haqqında, yaradıcılığında türkçülük və azərbaycançılıq məsələləri kontekstində yazılmış elmi araşdırmaların tərcümə edilərək nəşr edilməsi, beynəlxalq elmi konfranslarda, ədəbi görüşlərdə, yubiley tədbirlərində nizamişünasların məruzə və çıxışları – dahi Azərbaycan şairinin dünyada tanıdılması baxımından əhəmiyyətli hadisələr sırasındadır:

- Filologiya elmləri doktoru, AMEA-nın müxbir üzvü Nüşabə Araslının “Nizami və Güvahi etik-əxlaqi görüşlərində səsləşmələr” (“Azərbaycan ədəbiyyatşünaslığı”) Güvahinin əsərinin Nizami sənətinin türk xalq yaradıcılığı ilə qarşılıqlı bağlılığını təsdiq edən bədii nümunə kimi böyük tədqiqi əhəmiyyətini göstərməsi;
- Filologiya üzrə fəlsəfə doktoru Siracəddin Hacının “Nizami Gəncəvinin ədəbi kimliyi” başlıqlı məqaləsində dahi şairin dünya ədəbiyyatına təsiri geniş təhlil edilərək, onu “böyük siyasət adamı”, “insanlığın şairi” kimi dəyərləndirilmişdir ( “Azərbaycan ədəbiyyatşünaslığı”);

- Filologiya üzrə fəlsəfə doktoru, nizamişünas alim Zəhra Allahverdiyeva "Nizami Gəncəvinin nəsil-şəcərəsi" adlı məqaləsində ciddi faktlara istinad edərək, şairin babası Zəki Müəyyədinin əslən Oğuz türklərin Boz ox qolundan olduğunu xüsusi qeyd etməsi" ("Azərbaycan ədəbiyyatşünaslığı") və s. bu kimi məqalələri xüsusi ciddi elmi çəkisi olan materaillardır;

- Elmi işçi Hürnisə Bəşirova Nizami Gəncəvinin Türkiyədəki Topqapı sarayında mühfizə edilib saxlanılan qədim əlyazma nüsxəsini araşdırmış və böyük şairin anasının türk mənşəyinin təhrifinə səbəb olan "Anam kürd Rəisə öldü" beytlərinin saxta əlavə olduğunu aşkar etmişdir" ("Azərbaycan ədəbiyyatşünaslığı").

**"Azərbaycan ədəbiyyatşünaslığı" elmi toplusu. Xüsusi buraxılış.** Hələ 90-cı illərdə "Ədəbiyyat məcmuəsi" adı ilə nəşr olunan bu toplunu Yaşar Qarayev "bədii təfəkkür və onun elmi-nəzəri dərki, bir millət miqyasında bundan sonraki tərəqqinin də rəhni, şərti və zəmini olaraq" ədəbi-elmi mühitimizdə tarixi bir hadisə hesab edirdi [13, s.5].

Sonradan "Azərbaycan ədəbiyyatşünaslığı" adı altında nəşr olunan toplu son onillikdə Azərbaycan ədəbiyyatşünaslığının bir elm kimi inkişafında, beynəlxalq elmi əlaqələrinin genişləndirilməsində ciddi rolu olan nəşr kimi özünü təsdiq etmiş oldu. Bu gün də nəşri davam edən toplu beynəlxalq redaksiya heyətinə malikdir. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə edilən elmi nəşrlər siyahısına daxildir. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Əsərləri olan topluda Nizami Gəncəvi irsinin tədqiqinə həsr olunmuş yuxarıda sıraladığımız bu araşdırmalar və digər maraqlı materaiallarla tanış olmaq olar. Topluda məqalələr Azərbaycan, türk, ingilis, rus dillərində dərc edilir.

**Nizami Gəncəvi irsi müqayisəli ədəbiyyat və modern sənət kontekstində** – Nizami Gəncəvi irsini Azərbaycan sərhədlərindən uzaqlarda təsir dairəsini artıran, tanıtdıran toxunduğu bəşəri mövzular, problemlər, ideyaları və onların reallaşması yolları haqqında humanist mövqedən səslənən fikirlərinin aktuallığıdır. Hələ ötən əsrin 80-ci illərində Akademik Həmid Araslı qeyd edirdi ki, Bokaçonun "Ameta" əsərinin Nizaminin "Yeddi gözəl" poemasının təsiri ilə yazıldığını bütün Avropa alimləri təsdiq etmişdir və Qotsinin "Şahzadə xanım Turandot" əsəri həmin poemanın bir hekayəsi süjetində yaranmışdır [6, s.241]. Nizami Tağısoyun (Məmmədov) "Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poeması və Karlo Qotsinin "Turandot" pyesi (Oxşarlıqlar və fərqlər)" məqaləsində, eləcə də aşağıda sadalanan nümunələrdə müqayisəli ədəbiyyat və modern sənət kontekstində Nizami Gəncəvi irsi yeni aspektlərdə tədqiq və təqdim edilir:

- Filologiya elmləri doktoru Almaz Ülvi Binnətova. "Nizami Gəncəvi yaradıcılığı özbək elmi mənbələrində";

- Filologiya elmləri doktoru Yaşar Qasımbəyli. "Nizami Gəncəvi və Əlişir Nəvai "Xəmsə"lərinin genezisinə dair" ("Azərbaycan ədəbiyyatşünaslığı");

- Filologiya üzrə fəlsəfə doktoru Elnarə Qaragözova. "Nizami Gəncəvinin "İsgəndərnamə" və Aligyeri Dantenin "İlahi komediya" əsərlərində su arxetipi" (Cross-cultural matches: Nizami and Dante. Bakı, Mütərcim nəşr.-tı, 2021, s.32-33/89 s);

- Filologiya üzrə fəlsəfə doktoru Təhminə Bədəlova. "Nizami Gəncəvi irsi və "Qabusnamə" (https://literature.az/raAdmin/uploads/files/2021/10/26/22/ae6ba2f34d6119a5de3c1a-3d68242790.pdf);

- Filologiya üzrə fəlsəfə doktoru Təhminə Bədəlova. "Nizami və Həqiri Leylilərini birləşdirən xətt: Türk təfəkkürü" ("Kardeş kalemler"); Nizami Gəncəvi yaradıcılığında "Kəlilə və Dimnə" motivləri ("Azərbaycan" dərgisi);

- Filologiya elmləri doktoru Xuraman Hümmətova. "Nizami Gəncəvi və Yunus Əmrə sənətində ortaq fikirlər" ("Kardeş kalemler)";

- Filologiya üzrə fəlsəfə doktoru Yelena Teyer. "A.Zayaçkovskinin Nizami Gəncəvi ilə Qızıl Orda şairi Qütbün "Xosrov və Şirin" əsərlərinin" qarşılıqlı təhlili" ("Kardeş kalemler");

- Filologiya üzrə fəlsəfə doktoru Zakirə Əliyeva. "Azərbaycan-latış ədəbi əlaqələrndə Nizami Gəncəvi", - yeni elmi rakurslarda Nizami dühasına həsr edilmiş yazılardır ("Azərbaycan ədəbiyyatşünaslığı");

- Filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlı, Zakirə Əliyeva "Nizami Gəncəvi "Ədəbiyyat qəzeti"nin ədəbi yaddaşında" başlıqlı məqalədə şairin dərc olunan əsərləri və haqqında yazılan ədəbi-tənqidi materailları (1935-1965-ci illər) əhatə edən annotasiyalı biblioqrafik salnamə də orijinal tarixi rakursda təqdim edilmişdir ("Azərbaycan ədəbiyyatşünaslığı") və s.

**"Ədəbiyyat qəzeti" – "Nizami Gəncəvi ili"nə həsr edilmiş Xüsusi buraxılış (09 oktyabr, 2021).** Azərbaycan Yazıçılar Birliyinin Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə ortaq layihəsi – İctimai-siyasi hadisələrin qızğın dövrlərində belə ədəbi mühitdə Azərbaycan ədəbiyyatının öz səsini duydurmaq kimi missiyası 1934-cü ilin yanvar ayının 1-dən nəşrə başlayan "Ədəbiyyat qəzeti"nin öhdəsinə düşmüş müqəddəs bir vəzifə olmuşdur. Ədəbi irsimizi çoxillik çətin ictimai-siyasi fırtınalardan mühafizə edib günümüzə qədər yaşadan "Ədəbiyyat qəzeti" Azərbaycanın böyük mütəfəkkir şairi Nizami Gəncəvinin zəngin irsinə, şəxsiyyəti və yaşadığı dövrə, mühitin ədəbi hadisələrinə, dünyada tanınmasına dair araşdırmalara, tədqiqlərə, yazılara və s. həmişə maraq göstərmiş və bu gün də biganə qalmamaqdadır. 30-cu illərdə A.R.Barannikovun "Nizami və Hindistan ədəbiyyatı", H.Araslının "Nizami və Azərbaycan folkloru", C.Cəfərovun "Nizaminin romantizmi", C.Xəndan "Nizami və Azərbaycan ədəbiyyatı", Bertelsin "Böyük Azərbaycan şairi Nizami", Kraçkovskinin "Nizami və ərəb ədəbiyyatı" tədqiqatları haqqında yazan, 1947-ci ildə Mikayıl Rəfilinin "Öz əsrinin imkanları daxilində tarixi mükəmməl şəkildə öyrənmiş olan Nizamini bir şair kimi maraqlandıran, onu ruh və ilham verən İran dövləti deyildi, əsrinin insanları, əsrinin fikirləri, əsrinin həyat səhnələri idi. O, zehni, ruhi, qəlbi, əməl və arzuları ilə Azəri yurduna bağlı idi..." [9] sözlərini cəsarətlə dərc edən qəzet bu gün daha geniş imkanlarla həm ənənəvi, həm də elektron versiyalarında, həm saylarında, həm keçirdiyi ədəbi müzakirələrdə, söhbətlərdə, elmi görüşlərdə Nizami Gəncəvini tərənnüm edir. Bu baxımdan, Akademik İsa Həbibbəyli "Ədəbiyyat qəzeti"nin Nizami Gəncəvi ilinə həsr olunmuş 9 oktyabr saylı buraxılışını da mühüm bir hadisə kimi dəyərləndirir və xüsusi buraxılış vasitəsilə nizamişünaslıqda gedən proseslərin izlənilməsində əhəmiyyətini qeyd edir: "2021-ci ildə Azərbaycan nizamişünaslığının hansı səviyyədə olduğu, hansı axtarışlar apardığı, hansı istiqamətlərdə inkişaf etdiyini bilmək istəyiriksə, bu qəzet onu əks etdirə bilir".

**"Ulduz" jurnalı – Xüsusi buraxlış.** Azərbaycan Yazıçılar Birliyinin Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə ortaq layihəsi əsasında ərsəyə gəlmiş bu buraxılışda İ.Həbibbəylinin "Ədəbiyyat fatehi̇ və əbədiyyətin fəthi", Ataəmi Mirzəyein "Nizamidən Füzuliyə doğru", Aygün Bağırlının "Nizami Gəncəvinin ictimai idealı", Mətanət Vahidovanın Nizami yaradıcılığında sənətlərarası əlaqə" və s. məqalələr yer almışdır.

**"Kardeş kalemler" (Türkiyə).** "Nizami Gəncəvi ili"nə həsr edilmiş Xüsusi buraxılışı, 174-cü sayı. – Bengü Yayınçılıq bu Xüsusi buraxılışı belə təqdim edir: "Kardeş Kalemler'in bu özel sayısının hazırlanması süreci, değerli bilim adamımız Azerbaycan Millî Bilimler Akademisinin Başkan Yardımcısı, Nizâmî Gencevî Edebiyat Enstitüsünün Başkanı Ak. Prof. Dr. İsa Habibbeyli'nin teklifi ile başladı. Biz de bu teklifi memnuniyetle kabul ettik". Filologiya üzrə fəlsəfə doktoru Təhminə Bədəlova "Türk dünyasına səslənən "Qardaş qələmlər"in Nizami Gəncəvi sayı" məqaləsində yazır: Nizami Gəncəviyə həsr olunmuş xüsusi buraxılışı qardaş Türkiyə Cümhuriyyətinin, türk millətinin Azərbaycan xalqına və onun böyük oğlu, dünya şöhrətli sənətkar Nizami Gəncəvinin şəxsiyyətinə və sənətinə yüksək ehtiramının əməli ifadəsidir. İnanırıq ki, "Qardaş qələmlər" jurnalının Nizami Gəncəvi Xüsusi buraxılışı dahi sənətkarın dünyada Azərbaycan şairi kimi tanıdılmasında mühüm rol oynayacaqdır. "Qardaş qələmlər" jurnalının Nizami Gəncəvi sayı müstəqillik dövrü Azərbaycan-Türkiyə ədəbi-mədəni və elmi əlaqələrinin əhəmiyyətli və parlaq bir səhifəsidir" [13]. Dərgi Nüşabə Araslının "Orta çağ Türk şeirində Nizamidən iqtibaslar", Pərvanə Bəkir qızının (İsayeva) "Nizami Gəncəvinin "İskəndərnamə" əsərində mifoloji tiplər və motivlər", Aygün Bağırlının "Səməd Vurğunun gözündən Nizami Gəncəvi" və s. məqalələri Türk dünyası ədəbi ictimaiyyətinin diqqətinə təqdim edir.

**"Türk edebiyatı" (Türkiyə).** Aylıq fikir və sənət dərgisinin 2021-ci il sentyabr, 575-ci sayı da "Nizami Gəncəvi İli"nə həsr edilmişdir. Təsadüfi deyil ki, Azərbaycan ədəbiyyatının təbliği və tədqiqi işində əhəmiyyəti bu gün də davamlı olan "Türk ədəbiyyatı" dərgisinin redaktoru, şair və tərcüməçi İmdat Avşar da bu sahədə xidmətlərinə görə, "Nizami Gəncəvi" mükafatı ilə təltif edil-

mişdir. “Nizami Gəncəvi İli”nə həsr edilmiş bu sayda isə: “Azərbaycan ədəbiyyatının dünya gözəli: Nizami Gencevinin “Yedi Gözeli”, “Nizami Gencevinin hayatı ve dönemi üzerine araştırmalar”, “Nizami Gencevinin “Mahzenül-esrar” mesnevisinde tarihi şahsiyetler”, Nizami Gencevinin “Yedi Gözel” mesnevisinde devletçilik prensiplerinin tasviri ve teşviki” kimi məqalələrdə bütün Türk dünyasının Nizamisinə Azərbaycan ədəbiyyatşünaslarının elmi yanaşmaları öz əksini tapmışdır.

Akademik İsa Həbibbəyli məqaləsində Nizaminin bəşəriyyətə bəxş etdiyi nadir incilərin insanlıq üçün dəyərindən söz açmışdır.

Zəhra Allahverdiyeva “Nizami Gencevinin hayatı ve dönemi üzerine araştırmalar” başlıqlı məqaləsində şairin yaşadığı dövrlə bağlı təzkirə və nəzəri materialları ciddi elmi təhlilə cəlb edərək, bütün Türk dünyası üçün əhəmiyyətli olan maraqlı faktları ortaya qoymuşdur.

Təhminə Bədəlova isə Nizami Gencevinin “Mahzenül-esrar” mesnevisinde tarihi şahsiyetler” məqaləsində, adından göründüyü kimi, bədii obrazları yaradılmış tarixi şəxsiyyətlərdən bəhs etmişdir. Siracəddin Hacı “Nizami Gencevinin “Yedi Gözel” mesnevisinde devletçilik prensiplerinin tasviri ve teşviki” məqaləsində dövlətçilik haqqında təsəvvürləri Nizami ədaləti kontekstində araşdırmışdır.

**“Üç çizgi” (Türkiyə).** Eskişehir Azerbaycanlılar Derneği Yayın evinin orqanı olan jurnalın 19-cu buraxılışı Xüsusi say olaraq Nizami Gəncəvinin 880 illiyinə həsr edilmişdir.

Yuxarıda adıçəkilən toplularda Ədəbiyyat İnstitunun nizamişünaslarının, ümumiyyətlə alimlərimizin hər birinin bir neçə məqaləsi yer almaqla, xeyli elmi araşdırmalar əhatə olunmuşdur.

Bu gün ictimai fikrə təsir imkanları baxımından xeyli sayda televiziya və radio verilişləri, veb-saytlar, onlayn elmi görüşlər, video-konfranslar və s. adlarını göstərmək olar ki, bu qəbildən tədbirlərdə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun alimləri ən müxtəlif rakurslarda iştirak və çıxış etmişlər. Həm Nizami Gəncəviyə həsr olunmuş, həm də digər mövzularda informasiya resursları da biblioqrafik salnamədə qeydiyyata alınmışdır.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun saytı – www.literature.az İnformasiya texnologiyalarının, elektron və kompüter imkanlarının inkişafı digər elm sahələrində olduğu kimi, Azərbaycan ədəbiyyatşünaslıq elminin də populyarlaşdırılmasında, Nizami Gəncəvi kimi parlaq söz ustadının ədəbi yaradıcılığının tanıdılmasında yeni perspektivlər açır.

www.literature.az saytında yerləşdirilmiş “Nizami Gəncəvi - 880” – tammətnli elektron topluda da alimlərimizin məqalələri oxuculara təqdim edilir. Baza elmi bilik mənbəyi olamaqla yanaşı, informasiya-maarifləndirici internet resursu kimi dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illik yubileyinə həsr olunan nəşr edilmiş əsərləri və elmi toplularda dərc edilmiş məqalələri əhatə edir. Resurs Nizami Gəncəvinin ölməz əsərlərinin, milli ədəbi məktəbinin, xalqın ədəbi-mənəvi irsinin təbliğinə daha bir töhfədir.

Məqalələr ingilis və rus dillərində xülasələrlə təqdim olunur. Ümumiyyətlə, 2021-ci il ərzində və hazırda topludakı resursların ölkəmizdə və xaricdən 10 minə yaxın izlənməsi müşahidə edilmişdir. Eyni zamanda həm adıçəkilən topluda, həm də ümumiyyətlə etibarlı İnternet saytlarında dərc edilmiş Nizami Gəncəvi irsi ilə bağlı mövzularda məqalələr də biblioqrafik göstəricidə qeydiyyata alınmışdır.

Filologiya elmləri doktorları Şirindil Alışanlının “Nizami Gəncəvi poeziyası ədəbiyyatşünaslıqda və sənətdə”, Ataəmi Mirzəyevin “Nizami “Xəmsə”sində epik təhkiyə ilə lirik təqdimatın vəhdəti”, Pərvanə Bəkir qızının (İsayeva) “Bədii mətnin sinergetik aspekti (“İsgəndərnamə” məsnəvisi əsasında)”, Vüqar Əhmədin “Nizami Gəncəvi yaradıcığı dini-fəlsəfi-irfani kontekstdə”, Elnarə Akimovanın “Modern sənət prinsipləri kontekstində Nizami”, “Prezidentin “Gənc nəslin tərbiyə edilməsi” çağırışı kontekstində Nizami Gəncəvi irsi”, filologiya üzrə fəlsəfə doktorları Ülkər Zakir qızının (Məmmədova) “Nizami Gəncəvinin yaradıcılığında və orta əsrlər Azərbaycan ədəbiyyatında dostluq anlayışı”, Zəhra Allahverdiyevanın “Nizami Gəncəvi və Sənayi Qəznəvi”, Təhminə Bədəlovanın “Heç bir hünər ədalətdən gözəl deyildir”, “Nizami Gəncəvi: poetik sözün elmi cövhəri”, Firudin Qurbansoyun “Sirlər xəzinəsi”ndən iki beytin tərcüməsi haqqında”, Mətanət Vahidovanın “Nizami Gəncəvinin estetik görüşlərinin intermediallıq kontekstində analizi” və s. on-

larla elmi məqalələr, araşdırmalar mətbuat səhifələrində, sosial şəbəkələrdə nizamisevərlərin, ədəbiyyatsevərlərin diqqətinə təqdim edilmişdir.

**Nəticə / *Conclusion***

Azərbaycan ədəbiyyatını təbliğ etmək, tanıtmaq, populyarlaşdırmaq istiqamətində təqdimat yollarından biri də biblioqrafik imkanlardan səmərəli istifadədir. "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşlarının elmi əsərləri"nin biblioqrafik salnamələri tədqiqatçıların masaüstü istifadə etdikləri vəsait olmaqdan başqa, nəinki respublikanın, hətta bir sıra xarici ölkələrin də elmi qurumlarında, kitabxanalarında, tədris müəssisələrində və s. geniş istifadə olunur. Bu biblioqrafik nəşr təkcə mühüm informasiya və ya məlumat resursu deyil, elmi tədqiqatların yeni dövriyyəsinə daxil olacaq yeni elmi təfəkkür, yeni yanaşma, tənqidi düşünmə bacarıqlarının inkişafını şərtləndirən zəruri elmi biliklərin etibarlı qaynaqlarının göstəricisi, bu mənbələrin müəlliflərinin elmi yaradıcılıq nəticələrini sistemli şəkildə təqdim və təbliğ edən əhəmiyyətli elmi vəsaitdir. Biblioqrafiya fəaliyyət növü kimi ədəbiyyatşünaslıq da daxil olmaqla, elmlərin tərkib hissəsinə çevrilir və mənəvi dəyərlərimizin, ədəbi-mədəni irsimizin yaşadılması, təbliği və tədqiqi proseslərində fəal iştirak edir.

2022-ci ildə "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşlarının elmi əsərləri-2021" (ilk sayı, 2012) təqdim olunan 10-cu sayında "Nizami Gəncəvi ili"nə həsr olunmuş materaillar üstünlük təşkil edir. Bu qiymətli elmi mənbələrdə Nizami Gəncəvi dühasının inciləri ilə ədəbiyyatşünas alimlərimizin Azərbaycanı dünyaya yüksək mənəvi-intellektual kimliklərlə tanıtmasını, xalqlar və ölkələr arasında sülhməramlı elmi ünsiyyətlərə yollar açmasını, Azərbaycan dəyərlərinin dünyəviləşməsini izləmək olar.

Görkəmli nizamişünas alim, AMEA-nın müxbir üzvü Nüşabə xanım Araslının dediyi kimi: "Nizami şeirində vətənə sevgi duyğuları əzm, dəyanət tərbiyələndirən hikmətli beytlər istənilən qədərdir. Bütün bunlar ulu şairimizin həm də gələcək nəsillərə müraciəti olub, bu gün də ana torpaq, doğma vətən uğrunda qəti mübarizəyə qalxan igid vətən oğullarına qiymətli öyüdü, müqəddəs xeyir-duası kimi səslənməkdədir. Söz yox ki, bu günlərdə Nizami dühasından ilham alan cəsur döyüşçülərimiz şairin vətənlə bağlı qiymətli tövsiyələrini həmişə yadda saxlayacaq, doğma xalqın qədim qəhrəmanlıq ənənələrinə sadiq qalaraq, Şəhidlərimizin qanları bahasına düşmən tapdağından azad edilən müqəddəs Vətən torpağını mərdliklə qoruyacaqlar" [3, s.12]. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin kəlamında deyildiyi kimi, bu da qüvvətin elmdə olduğuna daha bir sübutdur.

**Ədəbiyyat / *References***


1. Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 05 yanvar 2021, URL: ttps://president.az/az/articles/view/49904
2. Akimova Elnarə. Nizami Gəncəvi ili", yaxud Şərq dəyərlərnin dünyəviləşməsi prosesi // Azərbaycan ədəbiyyatşünaslığı, 2021, № 2.
3. Araslı Nüşabə. Səadət günəşi birlikdən doğar //Azərbaycan: ədəbi-bədii jurnal. – 2021, №21.
4. Aygün Bağırlı. Milli-mənəvi dəyərlər dövlətçiliyimizin möhkəmləndirilməsində xüsusi rol oynayır // "Olaylar", 2022, 14-20 yanvar.
5. Heydər Əliyev. Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar. II cild. – Bakı: Turxan, 2013.
6. Həmid Araslı. Şairin dünya şöhrəti // H.Araslı. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri Bakı: Gənclik, 1998.
7. İsa Həbibbəyli. Nizami Gəncəvi ədəbi irsi: Heydər Əliyevdən İlham Əliyevə // "Azərbaycan ədəbiyytaşünaslığı", 2021, № 1.
8. İsa Həbibbəyli. Nizami Gəncəvinin irsinə və ideallarına yenidən qayıdışa çağırış // "525-ci qəzet", 2021, 05 yanvar.

9. Mikayıl Rəfili. “Xosrov və Şirin” // “Ədəbiyyat qəzeti”, 1947, 12 mart.
10. Nüşabı Araslı, Zəhra Allahverdiyeva. Nizami Gəncəvi haqqında yeni elmi araşdırma URL: www.literature.az
11. Səlahəddin Xəlilov. Elm haqqında elm. Bakı: “Azərbaycan Universiteti” nəşr-tı, 2011.
12. Teymur Kərimli. Nizami dühasının mükəmməl elmi təqdimatı // “Elm” qəzeti, 2021, 19 noyabr.
13. Təhminə Bədəlova. Türk dünyasına səslənən “Qardaş qələmlər”in Nizami Gəncəvi sayı // “Ədəbiyyat qəzeti”, 2021, 11 sentyabr.
14. Yaşar Qarayev. Redaktordan // “Ədəbiyyat məcmuəsi”, 1999, XVII cild.
15. Yaşar Qarayev. Seçilmiş əsərləri. Əsərlər, 5 cild, Humanitar düşüncə iki əsrin qovşağında. Bakı: Elm, 2016.
16. Zəhra Allahverdiyeva. Nizamişünaslığın tarixində yeni mərhələ // “Azərbaycan” qəzeti, 2021, 17 yanvar.
17. Əhmədov Teymur. Nizami adına Ədəbiyat İnstitutu (1935-2005). Bakı: Nurlar, 2005.
18. AMEA Nizami Gəncəvi ad. Ədəbiyyat İnstitutunun hesabatları: 1990-2012-ci illər // Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun arxivi.
19. Azərbaycan ədəbiyyatşünaslığı, 2021, №1.
20. Azərbaycan ədəbiyyatşünaslığı, 2021, №2.
21. “Ədəbiyyat qəzeti”, 2021, 09 oktyabr. Xüsusi buraxılış.
22. “Ulduz” jurnalı, 2021,10-cu sayı.
23. “Türk edebiyatı” (T.C.), 2021, 575-ci sayı, eylül.
24. “Kardeş kalemler” (T.C.), 2021, 174-cü sayı.
25. “Üç çizgi” (T.C.), 2021, 19-cu sayı.


## О научно-исследовательской деятельности учёных института литературы в «Год Низами Гянджеви»


**Закира Алиева**
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан
Доктор философии по филологии
E-mail: zakiraalieva@ rambler.ru



**Резюме.** Распоряжением Президента Ильхама Алиева (5 января 2021 года) в связи с 880-летием Низами Гянджеви 2021 год был объявлен “Годом Низами”. Вице-президент НАНА, директор Института литературы имени Низами Гянджеви, академик Иса Габиббейли оценил это распоряжение в литературоведении как “призыв вернуться к наследию и идеалам Низами Гянджеви”. Это распоряжение открыло широкое поле для возвращения к мерам, предпринятым в 1979 году на основании распоряжения общенационального лидера Гейдара Алиева по исследованию, переводу и публикации богатого наследия великого азербайджанского поэта Низами Гянджеви. Академик И.Габиббейли отметил, что впереди важные задачи – перевод произведений великого поэта на языки мира, подготовка и издание академического издания “Хамсэ”, научно-исследовательская работа над ним, написание и издание рекламных книг на иностранных языках.

Новое поколение ученых-филологов, востоковедов (член-корреспондент НАНА Нушаба Араслы, доктора филологических наук Имамверди Гамидов, доктора филологических наук Вафа Гаджиева, Сираджеддин Гаджи, Захра Аллахвериева, Тахмина Бадалова, Елена Теер и др.) принявших эстафету в 2021 году, почти с честью осуществив эту эстафету, сумели ее социализировать в контексте интеграции в мировую науку.



**Ключевые слова:** “Год Низами Гянджеви”, институт литературы, низамиведение, научно-академическое, богатое наследие